# *HEYDƏR HÜNƏRİ*

Bu qoca dünyanın dahi alimi,
Dərd çəkən ürəklərin məlhəmi.
Yenilməz, tükənməz, sönməz əməli,
Qüdrətdən yaranıb Heydər hünəri!

Gəlişiylə şölə saçdı hər yana,
Can verdi yenidən Azərbaycana,
Qanlar axıdılmır, ağlamır ana,
Qüdrətdən yaranıb Heydər hünəri!

Allah kimi inamlıdı təkliyi,
Bəllidir, dünyaya onun mərdliyi.
Yaratdı xalqda o, gücü, birliyi,
Qüdrətdən yaranıb Heydər hünəri!

Daim üstümüzdə sərin kölgəsi,
Yol vermədi parçalansın ölkəsi.
Ata dühasında hər bir kəlməsi,
Qüdrətdən yaranıb Heydər hünəri!

Kəriş Rəhimliyəm, Vətən ürəyim
Gözəl Qarabağdır duzum, çörəyim
Azadlıq nəğməsi, arzu, diləyəm,
Qüdrətdən yaranıb Heydər hünəri!

**Kəriş Sadiqoğlu**
**Ağcabədi rayonu Rəncbərlər kənd**
**tam orta məktəbinin müəllimi**